| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 09.07.2019 |
| QEYDİYYAT NÖMRƏSİ | 1642-VQD |
| ADI | “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 27-08-2019, Nəşr nömrəsi: 186), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-08-2019, Nəşr nömrəsi: 08, Maddə nömrəsi: 1370) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 27.08.2019 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 010.230.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 12201907091642 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 28.08.2019 |

**“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 7, maddə 405; 2001, 11, maddələr 689, 690, 12, maddə 736; 2002, 5, maddə 242; 2003, 1, maddələr 11, 16, 6, maddə 256; 2004, 1, maddə 10, 4, maddə 202, 5, maddə 314, 6, maddə 397; 2005, 2, maddə 62; 2006, 2, maddə 67, 11, maddə 923, 12, maddə 1005; 2007, 11, maddələr 1053, 1082; 2008, 5, maddə 354; 2009, 6, maddə 410; 2010, 3, maddə 173, 4, maddələr 275, 276; 2011, 2, maddə 71, 12, maddə 1074; 2012, 6, maddə 523; 2014, 8, maddə 956, 11, maddə 1376; 2015, 2, maddələr 77, 88, 5, maddə 485; 2017, 1, maddə 3, 5, maddə 707; 2018, 1, maddə 28, 11, maddələr 2196, 2218) aşağıdakı dəyişikliklər edilsin:

1. 10-1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Müvafiq icra hakimiyyəti orqanı bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə təcrübə mübadiləsini təşkil edir.”.

2. Aşağıdakı məzmunda 49-1-ci maddə əlavə edilsin:

“**Maddə 49-1. Bələdiyyə fəaliyyətinin təşkilinə kömək göstərilməsi**

Müvafiq icra hakimiyyəti orqanı bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək edir və onlara yerli özünüidarəetmə fəaliyyətinin qanunauyğun həyata keçirilməsi sahəsində metodoloji yardım göstərilməsi üzrə tədbirlər görür.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 iyul 2019-cu il
1642-VQD